# "Təhsil haqqında" və "Məktəbəqədər təhsil haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 9, maddə 684 (Cild I); 2024, № 4, maddə 362, № 5 (I kitab), maddə 500; 2025, № 1, maddə 16; Azərbaycan Respublikasının 2025-ci il 1 aprel tarixli 163-VIIQD nömrəli Qanunu) 18.5-ci maddəsinə "strukturlarında" sözündən sonra ", məktəbdənkənar təhsil müəssisələrində" sözləri əlavə edilsin.

**Maddə 2.** "Məktəbəqədər təhsil haqqında"Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 6, maddə 1012 (Cild I); 2025, № 1, maddə 18) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 8.5-ci maddənin birinci cümləsinə ikinci halda "müəssisələrində," sözündən sonra "məktəbdənkənar təhsil müəssisələrində," sözləri əlavə edilsin;

2.2. aşağıdakı məzmunda 11.4.5-1-ci maddə əlavə edilsin:

"11.4.5-1. məktəbəhazırlıq qruplarının fəaliyyət göstərdiyi məktəbdənkənar təhsil müəssisələri;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 iyul 2025-ci il*

Azərbaycan.-2025.- 22 iyul (№ 149).- S.7.